# Ana yurdum - Azərbaycan!

*Mus.: Rəşid Şəfəq, Söz.: Abdulla Şaiq*









Çöllərindir şən,
Hər yerin gülşən,
Sən nə gözəlsən,
Ey ana Vətən –
Azərbaycanım !

Bağdır, əkindir
Hər bir bucağın.
Qızıl təkindir
Ulu torpağın.

Böyütdün bizi,
Verdin qol-qanad.
Yoxdur qəm izi,
Şəndir bu həyat !

Qəlbim, canımsan,
Ey ana yurdum.
İsti qoynunda
Şən yuva qurdum, -
Azərbaycanım !